Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

# İCTİMAİ SİYASƏT TƏDQİQATÇILARI ÜÇÜN BƏLƏDÇİ



Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

# İCTİMAİ SİYASƏT TƏDQİQATÇILARI ÜÇÜN BƏLƏDÇİ

Bu bələdçi kitabçası Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı tərəfindən icra edilən “Azərbaycanda innovasiya əsaslı və dayanıqlı vətəndaş cəmiyyətinin inkişafı” layihəsi çərçivəsində hazırlanmışdır. Layihənin məqsədi siyasətlərin formalaşdırılması proseslərində və yerli inkişafın təşviqi fəaliyyətlərində vətəndaş cəmiyyəti təşkilatlarının iştirakını gücləndirmək, onların potensial və imkanlarını artırmaq, eləcə də sosial sahibkarlıq və sosial innovasiya sahəsində əlverişli ekosistem və potensial yaratmaqdır. Layihə vətəndaş cəmiyyəti təşkilatlarının siyasətlərin hazırlanması prosesində iştirakını artırmaqda dəstək göstərir. Layihə çərçivəsində vətəndaş cəmiyyəti təşkilatları üçün *ictimai siyasətlər və siyasət təhlili* üzrə təlim təşkil edilmişdir. Diqqətinizə çatdırdığımız Bələdçi Kitabçası həmin təlimin təqdim etdiyi əsas mövzuları əhatə edir.

Bu bələdçi kitabçası Dr. Anar Vəliyev tərəfindən hazırlanıb.

Redaktə Leyla Qurbanovaya məxsusdur.

Bu kitabçada ifadə olunmuş fikirlər Avropa İttifaqının və BMT-nin İnkişaf Proqramının mövqeyini əks etdirməyə bilər.

Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

Avropa İttifaqı öz nou-hausunu, resurslarını və amallarını tədricən birləşdirmək qərarına gəlmiş 27 üzv dövlətdən ibarətdir. 60 ildən artıq genişlənmə müddəti ərzində onlar, birgə olaraq, mədəni müxtəlifliyi, tolerantlığı və fərdi azadlıqları qoruyub saxlayaraq, sabitlik, demokratiya və dayanıqlı inkişaf zonasını yaradıblar. Avropa İttifaqı öz sərhədlərindən kənarda digər ölkə və xalqlarla öz nailiyyətlərini və dəyərlərini paylaşmağa sadiq olan tərəfdir.

U N
D P

BMT-nin İnkişaf Proqramı BMT-nin aparıcı agentliyi olub, yoxsulluq, bərabərsizlik və iqlim dəyişikliyi ilə mübarizə aparmaqdadır. Biz, 170 ölkədə müxtəlif mütəxəssis və tərəfdaşlarımızdan ibarət geniş şəbəkəmizlə birgə fəaliyyət göstərərək, planet və insanlar üçün hərtərəfli və dayanıqlı həllər üzərində çalışırıq.

# Mündəricat

**I İctimai (dövlət) siyasət nədir?** ........ **5**

**II İctimai (dövlət) siyasət prosesinin iştirakçıları** ........ **8**

**III Siyasətin hazırlanması prosesi** ........ **11**

**IV Siyasətin hazırlanmasında vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı** ........ **18**

**V Tövsiyə sənədinin siyasətin qəbulu prosesində rolu** ........ **23**

**VI Tövsiyə sənədlərinin növləri** ........ **27**

**VII Tövsiyə sənədinin struktur və mətn elementləri** ........ **30**

a. Başlıq ........ 32

b. Mündəricat ........ 33

c. Giriş ........ 34

d. Problemin təsviri ........ 37

**VIII Problemin təsvirinin qurulması: mətn və arqumentin təqdimatı** ........ **39**

**IX Siyasət seçimləri** ........ **43**

**X Nəticə və tövsiyələr** ........ **47**

Əlavə I. Vətəndaş iştirakının matrisi ........ 49

İstinadlar (APA) ........ 50

# I

# İctimai (dövlət) siyasət nədir?

# I İctimai (dövlət) siyasət nədir?

"İctimai siyasət nədir?" sualına məşhur alimlər uzun müddət cavab tapmağa çalışıb. İlk öncə qeyd edək ki, "ictimai siyasət"in başqa adı "dövlət siyasəti"dir. Bundan başqa, "ictimai siyasət hökumətlərin nəyi etməyi və ya etməməyi seçməsi"dir. (Dye, 1992, Anderson, 1994, s.4). "İctimai siyasətin"in bu açıqlamaları sadə ifadələrdən daha mürəkkəb və genişə doğru sıralanır. Məsələn, "ictimai siyasət bir problem və ya narahatlıq doğuran məsələ ilə bağlı bir neçə iştirakçının həyata keçirdiyi məqsədyönlü fəaliyyət toplusudur" (Anderson, s.5). Bu sahədə istifadə olunan vacib anlayışların mənalarını açıqlamaq faydalıdır. Bu vacib anlayışların siyahısı aşağıdakılardır:

*İctimai siyasətin müxtəlif tərifləri mövcuddur, lakin onlar əsas xüsusiyyətləri öz aralarında paylaşırlar.*

**İctimai (dövlət) siyasət:**

- *hökumətin gördüyü işdir*

Başqa sözlə, ictimai (dövlət) siyasət qanunvericilik, siyasi və maliyyə hüquqlarına malik olan dövlət orqanının yerinə yetirdiyi fəaliyyətdir.

- *dünya ehtiyaclarına və ya problemlərinə göstərilən münasibətdir*

İctimai (dövlət) siyasət cəmiyyətin və ya cəmiyyət daxilindəki qrupların; vətəndaşların, vətəndaş cəmiyyəti təşkilatlarının (VCT) və ya dövlət orqanlarının ehtiyaclarına və ya problemlərinə münasibət bildirir.

- *məqsədyönlüdür*

İctimai (dövlət) siyasət nəzərdə tutulmuş auditoriya arasında müəyyən bir ehtiyacı həll etmək və ya həll etmək cəhdi üçün xüsusi hazırlanmış məqsədlər toplusudur. Həll etmək cəhdi dedikdə problemin tanınması və onun haqqında danışılması nəzərdə tutulur.

**Əsaslandırma –** *"bir işi nə üçün edirəm?" sualına verilən cavabdır.*

- *fəaliyyət istiqamətidir*

İctimai (dövlət) siyasət adətən, sadəcə qərar, fəaliyyət və ya münasibət deyil, eyni zamanda yenilənmiş yanaşma və ya strategiyadır. Bu halda, ictimai (dövlət) siyasət problemin daha səmərəli şəkildə həll etmək üçün onunla müvafiq davranılma yolunu göstərir.

- *nəsə etmək və ya heç nə etməmək qərarıdır*

Göstərilən ictimai (dövlət) siyasət problemi həll etməyə kömək edir. Bəzi hallarda problemin həll olunacağına inanaraq heç bir tədbir görülməyə də bilər.

- *bir və ya bir neçə şəxs tərəfindən həyata keçirilir*

İctimai (dövlət) siyasət bir hökumət nümayəndəsi, hökumət orqanı və ya bir neçə icraçı tərəfindən həyata keçirilə bilər.

**İcraçı –** *bir işi yerinə yetirən şəxs və ya təşkilatdır.*

- *fəaliyyət üçün əsaslandırmadır*

Göstərilən ictimai (dövlət) siyasət adətən, siyasətin arxasında dayanan əsaslandırmanı özündə əks etdirir. Yəni, ictimai (dövlət) siyasət müəyyən addımın nə üçün atılmasının cavabıdır.

- *qəbul edilmiş qərardır*

İctimai siyasət artıq verilmiş qərardır, niyyət və ya vəd deyil. Başqa sözlə desək, ictimai (dövlət) siyasət daha konkret və realdır.

**Cədvəl 1.1** — İctimai və Özəl Sektorun xüsusiyyətləri

| **Kriteriyalar** | **İctimai Sektor** | | **Özəl Sektor** |
|---|---|---|---|
| | **Dövlət** | **Qeyri-Dövlət (VCT)** | |
| **Əsas Məqsəd** | Vətəndaşa xidmət göstərmək və onun qayğısına qalmaq | Filantropiya, yəni ehtiyacı olanlara yardım məqsədilə xeyriyyəçilik | Gəlir əldə etmək |
| **Cavabdehdir** | Seçicilərə | Donora | Səhmdarlara |
| **Xidmətdən yararlana bilər** | Kollektiv (bütün ölkə əhalisi) | Selektiv (yalnız seçilmiş insanlar) | Xidmət üçün ödəniş edən şəxslər |
| **Sahənin yaradılması üçün fəlsəfə (İdeya)** | Monopoliya (yalnız dövlət bu xidməti təklif edə bilər. Xidmətlər vergidən maliyyələşir) | Könüllü (xidmətlər ödənişsiz olmalıdır. Hər bir VCT bunu edə bilər) | Rəqabətli (istənilən şirkət bunu edə bilər) |

# II

# İctimai Siyasət Prosesinin İştirakçıları

# II İctimai Siyasət Prosesinin İştirakçıları

İctimai siyasətin formalaşması cəmiyyətə birbaşa təsir göstərir. Bu prosesdə iştirak edən maraqlı tərəflər çoxsaylı və müxtəlifdir. Bu tərəflər kim ola bilər? — Dövlət qurumları, **beyin mərkəzləri**, tədqiqat mərkəzləri, qeyri-hökumət təşkilatlarının və digər icmaların üzvləri və fərdlər. Məsələn: Azərbaycanda sosial siyasətin formalaşmasının mərkəzində əlbəttə ki, dövlət qurumu dayanır — **Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**. Bu siyasətin formalaşmasında maraqlı tərəf kim ola bilər və Nazirliyə kim dəstək ola bilər? Cəmiyyətin problemləri ilə məşğul olan qeyri-hökumət təşkilatları, sosial tədqiqat mərkəzləri (STM), Azərbaycan Milli Elmlər Akademiyasına daxil olan qurumlar (Elmi Tədqiqat İnstitutu), icmalar və əhalinin məsələ ilə bağlı qrupları (misal üçün, boşanmış şəxslər, qazilər, şəhid ailələri və əlilliyi olan şəxslər), beynəlxalq hökumət təşkilatları, siyasi məsləhətçilər və ya mərkəzlər, yerli hakimiyyət orqanları, siyasi partiyalar, vətəndaş cəmiyyəti təşkilatları (VCT), birliklər və ya əlaqədar vətəndaşlar bu siyahıya daxil ola bilər. Tədqiqatçılar dövlət qurumlarına bu siyasətləri yaratmaq üçün kömək edə bilər. Eyni zamanda, qeyrihökumət təşkilatları, icmalar və fərdlər öz məsləhətlərini verərək prosesə töhfə verə bilər. **Siyasi analitik** və hökumət arasında bu cür birbaşa əlaqə Mərkəzi və Şərqi Avropa ölkələrində yoxdur. Buna baxmayaraq, bir çox siyasi tədqiqatçılar, siyasi analitiklər və mərkəzlərin məqsədi bu ölkələrdə olan siyasət müzakirələrinə təsir göstərməkdir. Onlar ilk növbədə öz tədqiqatlarını çap edirlər və daha sonra media vasitəsilə daha geniş ictimai (dövlət) siyasət kütləsinin diqqətinə çatdıra bilirlər.

*İctimai siyasət iştirakçıları müxtəlif maraqlı tərəflər qrupudur.*

**Beyin mərkəzləri** – *yeni ideyaların yaranması üçün insanların bir yerdə işlədiyi böyük təşkilatlardır.*

**Siyasi analitik** *siyasət sisteminin yaranmasını və inkişafını araşdırır.*

Sözsüz ki, istənilən müasir cəmiyyətdə bütün maraqlı tərəflər ən güclü vasitələrlə, məsələn, dövlət qurumu, digər parlament nümayəndələri və ya media ilə seçdikləri siyasət təklifini müdafiə etmək üçün əllərindən gələni edəcəklər. Belə maraqlı tərəflərə

qeyri-hökumət təşkilatları, beynəlxalq hökumət təşkilatları, digər siyasi məsləhətçilər və ya mərkəzlər, o cümlədən yerli hakimiyyət orqanları, siyasi partiyalar, icma qrupları, birliklər və ya əlaqədar vətəndaşlar daxil ola bilər. Qrafik 2.1 siyasi məsləhətçinin nöqteyi-nəzərindən geniş ictimaiyyəti və onların münasibətlərini əks etdirir.

**Qrafik 2.1** İctimai (dövlət) Siyasət iştirakçıları



# III

# Siyasətin Hazırlanması Prosesinin Çərçivəsi

# III Siyasətin Hazırlanması Prosesinin Çərçivəsi

Siyasətin hazırlanması prosesi müxtəlif yollarla həyata keçirilir. Aşağıdakı verilmiş qrafik siyasətin necə qəbul edilməsini izah edir. Siyasətin hazırlanması prosesinin çərçivəsində altı addım var. VCT-lər və dövlət orqanları bu addımların hər birində qarşılıqlı əlaqədə ola bilər.

**Qrafik 3.1** Siyasətlərin hazırlanması prosesi



**1-ci addım: Problemin aşkarlanması və onun dövlət qurumunun gündəminə gətirilməsi**

*Hökumətin diqqət etməli olduğu mövcud bir problemi göstərin.*

Problemi müəyyənləşdirmək və ya hansısa problemi dövlətin gündəminə gətirmək cəmiyyətdə bir qrup insan tərəfindən edilir. Əgər siz bir vətəndaş, VCT üzvü, maraqlı tərəf kimi bu problemin həllinin tapılmasında maraqlısınızsa, birinci olaraq siz bu problemi dərk etməlisiniz və dövlət qurumunun siyasi gündəliyinə daxil edilməsinə nail olmalısınız. Bunun üçün əlaqədar dövlət qurumunu inandırmalısınız ki, hökumətin fəaliyyətini tələb edən real problem mövcuddur. Buna nail olmaq üçün siz kifayət qədər inandırıcı və hərtərəfli məlumat və dəlil təqdim etməlisiniz ki, burada problemin səbəbləri, nəticələri və miqyası ətraflı göstərilsin. Hər hansı problemin müxtəlif insan qruplarına fərqli təsirini nəzərə almaq da vacibdir. Məsələn: qadınlar və kişilər, gənclər və qocalar, şəhər və kənd əhalisi, əlilliyi olan şəxslər, qaçqınlar, etnik azlıqlar və başqaları. Eyni zamanda, dövlət qurumunu inandırmalısınız ki, problem həll olunmasa, bu, daha böyük fəsadlara gətirib çıxara bilər. Məsələn: Bu gün Kür çayının quruması 100 minlərlə insanın həyatına təsir edir. Bu problem həll olunmasa, 100 minlərlə insan öz yerlərindən köçürülə bilər. Bu mərhələdə VCT tez-tez gündəmi təbliğat kampaniyaları və kütlə maraqları adından məsələlər, ehtiyaclar və narahatlıqlar üçün **lobbiçilik** vasitəsilə formalaşdırır və siyasi müzakirələri təşviq edən tərzdə hərəkət edirlər.

**Lobbiçilik** – *bir qrup insanın birləşərək səlahiyyətli şəxsi, adətən, hökumətin seçilmiş üzvünü müəyyən qanun və ya qaydaları dəstəkləmək üçün inandırmağa çalışmaq cəhdidir.*

**2-ci addım: Problemin həll yollarının formalaşması**

*Bütün mümkün həll yollarını nəzərə alın.*

Problem gündəmə gəldikdən sonra bu məsələnin həll yolları təklif olunur. Burada VCT-lər tez-tez problemlərin səbəblərini müəyyən etmək, həll yollarını təklif etmək və bu təkliflər üçün sübut təqdim etmək mərhələlərində iştirak edirlər. Bu təklifləri qurmaq üçün hazırda nə edildiyi, hansı variantların nəzərdən keçirilməli olduğu, təklif olunan seçimlər və sizin öz təklifləriniz lazımdır. Bu həll yollarını verəndə sizin təklifləriniz bir-birindən fərqli olmalıdır. Bundan əlavə, nəzərə alın ki, ideal variant tapmaq çətin olacaq, buna görə olduğunuz şərait üçün ən real və əldə oluna bilən siyasi həll yollarını tapmağa çalışmalısınız.

**3-cü addım: Problemin həll yolunu seçmək**

Həll yollarının hazırlanmasından sonra siz **qiymətləndirmə meyarları** əsasında potensial siyasət üçün öz variantınızı seçməlisiniz. Bu meyarlar aşağıdakılardır:

> **Qiymətləndirmə meyarı**
> *qiymət dərəcəsini göstərən ölçüdür.*

**Cədvəl 3.1** — Qiymətləndirmə meyarları

**Təsirlilik (Effektivlik): Bu həll yolu nə dərəcədə istənilən nəticələrə gətirib çıxaracaq, yəni indiki problemi həll edəcək?**

**Səmərəlilik: Bu həll yolu əlavə xərcə ehtiyac olmadan yerinə yetirilə bilərmi?**

**Ədalət və bərabərlik: Bu problemin həlli qadınlar və kişilər, gənclər və qocalar, miqrantlar, əlilliyi olan şəxslər, etnik azlıqlar də daxil olmaqla hamıya eyni dərəcədə təsir edirmi?**

**Həll yolunun mümkünlüyü: Bu həll yolunun əldə olan resurslarla həyata keçirilməsi mümkündürmü?**

Siz bütün alternativlərinizi qiymətləndirib, nəticələri müqayisə edərək fərqləri hesabladıqdan sonra hansı nəticənin ən yaxşı olduğuna qərar verməlisiniz. Siyasi qərarların qəbulu formaları milli məzmun və qanunvericiliyə görə dəyişir. Qanun layihələri və digər siyasəti müəyyən edən sənədlər VCT-lərin müdaxilə və cəlbi üçün uyğun olmalıdır ki, dövlət orqanları qərar qəbul etməzdən əvvəl müxtəlif fikir və rəyləri qiymətləndirə bilsinlər. Bu, VCT-lərin qərar qəbul etmə prosesində iştirak etməsinə daha da təkan verəcəkdir.

**4-cü addım: Problemin həll yolunun tərtibi**

Dövlət qurumu bu mərhələdə qərar verməlidir ki, hansı resurslar və yollarla bu problemi həll etsin. Sizin dördüncü addımınız problemin həll yolu planını qurmaqdır.

**5-ci addım: Siyasətin həyata keçirilməsi və monitorinqi**

Bundan sonra planınız artıq həyata keçirilir. Bu mərhələdə siz bütün resurslarınızı bu planı yerinə yetirmək üçün istifadə etməlisiniz. Bu mərhələ nəzərdə tutulan nəticənin

yerinə yetirilməsini təmin etmək üçün xüsusilə vacibdir. Bu mərhələdə VCT-lər, məsələn, xidmətlərin göstərilməsi və layihənin yerinə yetirilməsində ən fəal tərəflərdir. Eyni zamanda, siyasətin nəzərdə tutulan məqsədə çatmaq üçün effektiv və şəffaf monitorinq sisteminin olması vacibdir. VCT-lər həyata keçirilən siyasətin nəticələrinin monitorinqində və qiymətləndirilməsində də iştirak edə bilərlər.

**6-cı addım: Siyasətin təsirinin qiymətləndirilməsi və siyasət islahatı**

Siyasət yerinə yetirildikdən sonra tətbiq edilən həll yolu qiymətləndirilir. Bu mərhələdə dövlət qurumu bu siyasətin nəticələrini və təsir gücünü qiymətləndirir. Bu qiymətləndirmənin köməyilə dövlət qurumu siyasətin uğurlu olmasının və ya olmamasının qərarını verir. Siyasətin qiymətləndirilməsi nəticəsində əldə edilən biliklər və cəmiyyətdə yaranan ehtiyaclar çox vaxt siyasətin yenidən formalaşdırılmasını tələb edə bilər. Aşağıdakı nümunədə tam şəkildə uğurlu olmayan siyasətə dair nümunə verilib:

**Türkiyədəki uğursuz siyasət nümunəsi: Suriyalılar və digər qaçqınların təhsil üçün şərti nağd pul köçürməsi**

Təhsil üçün şərti nağd pul köçürməsi 2003-cü ildən etibarən tətbiq edilir və Türkiyədə məktəblilərin sayını artırmaq və onları məktəbə gündəlik getməyə həvəsləndirmək üçün istifadə olunur. Əsas məqsədi uşaqların məktəbdən yayınmaması olan bu proqram çərçivəsində 2017-ci ildən etibarən suriyalı ailələrə də pul paylanıb. Proqramın pul köçürmə qaydaları həm türk ailələri, həm də qaçqınlar üçün eynidir. Nağd pul köçürmə komponentindən sonra 2017-ci ilin may — 2020-ci ilin mart ayları ərzində 75,390 qaçqın uşaq yardım alıb. İştirak edən ailələr uşağın ən azı 80% məktəbə getməsi şərti ilə hər 2 aydan bir nağd yardım alırlar. Proqramın qiymətləndirilməsi proqramın məktəbə davamiyyət baxımından uğurlu olduğunu göstərdi. Bununla belə, uşaq əməyi riskləri halında həm oğlanlar, həm də qızlar demək olar ki, eyni dərəcədə həssas idilər. Uşaq nikahları və zorakılıq kimi digər gender əsaslı risklər zamanı qızlar daha həssas idi və təsirə məruz qalmışdılar və proqram buna kömək etməmişdi. Nəticədə, uşaqların müdafiəsi məsələsi məhdud imkanlar və cari humanitar kontekstin mürəkkəbliyi səbəbindən onların xidmətlərinə olan tələbatı ödəyə bilmədi.

* Ətraflı

Lakin uğurlu nəticələnən siyasətlər də mövcuddur. Aşağıda verilmiş siyasət buna nümunədir:

**Somali və Cənubi Sudan: İcmalar Qayğınıza Qalır**

Somalidə və Cənubi Sudanda qadınlar və qızlar uzun müddətdir ki, ölkələrində davam edən münaqişə və müharibə, qaçqınlıq kimi problemlər səbəbindən gender əsaslı zorakılıq da daxil olmaqla ciddi şəkildə zorakılıq riski altındadır.

**"İcmalar Qayğınıza Qalır"** 2013-cü ildə başlamış humanitar şəraitdə gender əsaslı zorakılığın qarşısının alınması üçün vahid sosial transformasiya proqramıdır. Məqsəd cəmiyyətin gender əsaslı zorakılığı davam etdirən normalarına meydan oxumaqla qadınlar və qızlar üçün daha təhlükəsiz icmalar yaratmaqdır. Proqramın digər məqsədi cəmiyyətə qadınların və qızların təhlükəsizliyini, ləyaqətini və bərabərliyini müdafiə edən normalar gətirməkdir. Proqram qadınlara və qızlara mərhəmətli, bu və ya digər zorakılıqlara məruz qalanlara yönəlmiş (**sağ qalanlara yönəlmiş**) qayğı göstərir və cinsi zorakılığın əsas səbəblərini həll etmək üçün yerli icmalarla əməkdaşlıq edir. Proqram zorakılıq qurbanı olan qadınlara əsas hədəf qrupu kimi baxılması üçün xilas olanlara yardım xidmətlərinin planlaşdırılması ilə başlayır. Bundan sonra gender əsaslı zorakılığa səbəb olan və onu davam etdirən cəmiyyətin normaları və onları dəyişdirmək yollarını araşdırmaq üçün nüfuzlu icma üzvləri ilə bir sıra strukturlaşdırılmış və sadələşmiş dialoqlar aparılır. Daha sonra icma üzvləri zorakılığı dəstəkləyən normaları əvəz edə biləcək alternativ norma və davranışları nəzərdən keçirməyə təşviq edilir. Prosesin son mərhələsində sosial və ənənəvi media vasitəsilə yeni davranışlar və normalar görünməyə başlayır.

**Sağ qalana yönəlmiş yanaşma** – *hər bir sağ qalanın hüquqlarını bütün hərəkətlərdə ön plana çıxarmaq və hər bir sağ qalana ləyaqət və hörmətlə yanaşılmasını təmin etmək məqsədi daşıyır.*

Nəticədə, bu cür dialoqlar əvvəlki maarifləndirmə cəhdlərindən daha çox təsir göstərdi. Somalidə gender əsaslı zorakılıqla bağlı zərərli normaların azalması, eləcə də sağ qalanların günahlandırılması və onların ailələri tərəfindən rədd edilməsi hallarının azalması və zorakılıq qurbanlarına dəstəyin artması müşahidə edilib. Ən sonda, zorakılıq və qadın sünnəti ilə bağlı yaşlı nəslin nümayəndələri ilə aparılan söhbətlər zorakılıqdan sağ qalanlar üçün qayğı xidmətləri ilə bağlı tövsiyələrin artırılmasına kömək edib.

**Slovakiyada Romalıların (bax- Qeyd) Təhsilinə Dəstək: Təhsil vasitəsilə Romalı Uşaqların Cəmiyyətə Qaytarılması — Sosial Təcridlə Mübarizə. Jarovnice-Kariçe, Roma qəsəbəsi, Slovakiya**

2003-2005-ci illərdə “Romalıların Təhsilinə Dəstək” adlı layihə həyata keçirilib. Layihənin əsas məqsədi romalı uşaqları cəmiyyətə qaytarmaq və onlara keyfiyyətli təhsil vermək idi. Layihənin digər məqsədi həm məktəbədəqədər təhsilin keyfiyyətini artırmaq, həm də romalı valideynləri uşaqlarını ümumi məktəblərə yazdırmağa və aparmağa həvəsləndirmək idi. Proqramın sonunda məktəbəqəbul və təhsilin keyfiyyəti artmışdı və bu da proqramın uğurlu olduğunun göstəricisi idi.

Qəsəbə əhalisinin iştirakı layihənin əsas hissəsi olduğuna görə Yarovnice-Kariçedə yerli icma mərkəzi yaradılmışdı. Belə ki, valideynlərə dəstək üçün təhsil mövzusunda müxtəlif proqramlar və təlimlər həyata keçirilmişdi. Bu tədbirlərin keçirilməsində icmanın əsas məqsədi həm də millətlərarası münasibətləri yaxşılaşdırmaq idi. Romalı olmayan kəndlilərin iştirakı ilə keçirilən tədbirlərdə bəzi vətəndaş cəmiyyəti fəaliyyətləri də mövcud idi.

Romalı və digər uşaqların eyni məktəbə getməsi üçün Yarovnice-Karice mövcud 3 dövlət uşaq bağçasında gündəlik tapşırıqlar təşkil edilmişdi. Layihəyə romalı şagirdlər üçün köməkçi müəllimlər dəvət olunmuşdu. Bundan əlavə, məktəbəqədər təhsildə olan uşaqların anaları həftədə bir dəfə mərkəzdə övladlarının dərslərinə dəstək olmaq üçün təlim alırdı. Beləliklə, valideynlər həm özləri öyrənir, həm də uşaqlarını öyrədirdilər.

Layihənin nəticəsində valideynlər, icma, müəllimlər, məktəb rəhbərliyi və kənd sakinləri daxil olmaqla, həm bağça, həm məktəblərdə romalıların cəmiyyətə inteqrasiyası üçün vacib işlər həyata keçirildi. Anaların məktəbəqədər təhsil proqramına cəlb edilməsi xüsusilə uğurlu hesab edilirdi.

* Ətraflı

*Qeyd: Romalılar yerli əhalimiz arasında daha çox qaraçılar adı ilə tanınırlar. Onlar tarixən köçəri həyat tərzi sürüblər. Onların özlərinə məxsus adət-ənənələri və zəngin musiqisi var. Avropa ölkələri romalılardan çox xüsusiyyətlər götürüb. Məsələn, məşhur “Flamenko” rəqsinin müəllifi məhz romalılardır.*

# IV

# Siyasətin hazırlanmasında Vətəndaş Cəmiyyəti Təşkilatlarının iştirakı

# IV Siyasətin hazırlanmasında Vətəndaş Cəmiyyəti Təşkilatlarının iştirakı

VCT-lərin siyasətin hazırlanması prosesinin müxtəlif mərhələlərində cəlb olunması təşkilatların iştirakının intensivliyindən asılı olaraq dəyişir. Ən azdan ən çox iştirakçıya doğru sıralanan dörd iştirak səviyyəsi var:

**İntensivlik –** *zamana və onun tezliyinə xitab edən bir anlayışdır. Yəni, hadisə intensivdirsə, deməli, o, tez-tez baş verir.*




**a. Məlumat**

Bu, adətən dövlət orqanları tərəfindən məlumatın birtərəfli ötürülməsindən ibarət olan nisbətən aşağı iştirak səviyyəsidir və VCT-lərlə heç bir qarşılıqlı əlaqə və ya VCT-lərdən iştirak tələb olunmur yaxud gözlənilmir. O, bütün siyasət dövrü ərzində ictimaiyyətin bütün məlumatlara (məsələn, qaralamalar, şərhlər) əlçatımlılıq hüququnu əhatə edir. Dövlət orqanı ictimaiyyətin proseslə bağlı vaxtında və dəqiq məlumat almasını təmin etməlidir.

**b. Məsləhətləşmə**

Dövlət orqanları VCT-lərdən konkret siyasət mövzusu və ya onun qurulması ilə bağlı fikirlərini soruşa bilər. Məsləhətləşmələr adətən hakimiyyət orqanlarının siyasətin qurulması haqqında VCT-lərin məlumatlandırmasını və şərhləri, eləcə də bu orqanlardan rəylər və geri dönüş tələb etməyi əhatə edir. Təklif və mövzular VCT-lərdən deyil, dövlət orqanları tərəfindən təqdim olunur.

**c. Dialoq**

Dialoqu hər iki tərəf başlada bilər və bu, ümumi müzakirə və ya xüsusi əməkdaşlıq dialoqu ola bilər:

Ümumi müzakirə dialoqu müntəzəm fikir mübadiləsi üçün qarşılıqlı maraqlar və paylaşılan gələcək məqsədlər üzərində qurulmuş ikitərəfli ünsiyyətdir. Bu, açıq ictimai dinləmələrdən tutmuş VCT-lər və dövlət orqanları arasında ixtisaslaşmış görüşlərə qədərdir.

Xüsusi əməkdaşlıq dialoqu adətən, birgə tövsiyə, strategiya və ya qanunvericiliyə təkan verən konkret siyasətin qurulması üçün qarşılıqlı maraqlar üzərində qurulur. Xüsusi dialoq ümumi dialoqdan daha güclüdür, çünki o, əsas siyasət strategiyalarını hazırlamaq üçün birgə və tez-tez keçirilən görüşlərdən ibarətdir və çox vaxt birgə tövsiyə və ya qanunvericilik kimi razılaşdırılmış nəticələrə gətirib çıxarır.

**d. Tərəfdaşlıq**

Bu, VCT-lərin və dövlət orqanlarının sıx əməkdaşlıq etdiyi, eyni zamanda VCTlərin müstəqilliyini davam etdirmələrini və tərəfdaşlıq vəziyyətindən asılı olmayaraq təşviqat aparmaq və fəaliyyət göstərmək hüququna malik olmalarını təmin edən ən yüksək iştirak səviyyəsidir. Tərəfdaşlığa xidmətlərin göstərilməsi, iştirakçı forumlar və birgə qərar qəbul edən orqanların yaradılması kimi fəaliyyətlər daxil ola bilər.

Siyasətin formalaşması prosesində praktiki vasitələrin təmin edilməsi vətəndaş iştirakına böyük kömək ola bilər. Məsələn :

- Elektron iştirak;
- Potensialın gücləndirilməsi;
- VCT-lər və dövlət orqanları arasında əməkdaşlıq strukturlarının mövcudluğu;
- Çərçivə sənədləri;

**Elektron iştirak**

Elektron vasitələrdən istifadə mütəşəkkil vətəndaş cəmiyyətinin iştirakını **təkmilləşdirmək** üçün böyük potensial təklif edir. Onlar institutların şəffaflığına, hesabatlılığına və cavabdehliyinə, vətəndaş iştirakının təşviqinə və demokratik prosesin səlahiyyətlərinin artırılmasına,

**Təkmilləşdirmək** – *daha yaxşı, daha mükəmməl hala gətirmək, mükəmməlləşdirməkdir.*

əlçatanlığına və **inklüzivliyinə** böyük fayda verə bilərlər. Bu gün bir çox ölkələrdə ən çox istifadə olunan alətlər mərkəzi elektron portallardır.

**İnklüzivlik** – *hər hansı fərq və sosial kimliklərindən asılı olmayaraq bütün insanların prosesə cəlb edilməsi, qəbul edilməsi və dəyərləndirilməsidir.*

**Mübadilə Proqramı** – *bir şəxsin başqa bir ölkədə və adətən dərslərdə iştirak edəcəyi və ya işləyəcəyi tərəfdaş bir şirkətdə keçirdiyi layihədir.*

### Potensialın gücləndirilməsi

VCT-lərin siyasətin formalaşmasında, layihənin hazırlanmasında və xidmətlərin təmin edilməsində fəal iştirak edə bilməsi üçün onların bacarıqlarını inkişaf etdirmək vacibdir. Potensialın yaradılması addımları — VCT-lərin və dövlət orqanlarının rollarının başa düşülməsini təkmilləşdirmək üçün təlim seminarlarını, eləcə də bir-birinin cari reallıqlarını başa düşməyi asanlaşdırmaq üçün müxtəlif səpkidə **mübadilə proqramlarını** əhatə edə bilər.

### Əməkdaşlıq strukturları

Dövlət orqanları ilə VCT-lər arasında əlaqələri asanlaşdırmaq üçün bir sıra ölkələr əlaqələndirici orqanlar yaradıb. Bunlara daxildir: hər bir Nazirlikdə vətəndaş cəmiyyəti üzrə əlaqələndirici şəxs yaxud mərkəzi əlaqələndirmə tərəfi kimi dövlət orqanları; çoxtərəfli komitələr, işçi qrupları, ekspert şuraları və digər məsləhət orqanları (daimi və ya müvəqqəti) kimi birgə strukturlar; və ya resursları birləşdirən və birgə mövqeləri inkişaf etdirən VCT ittifaqları.

### Çərçivə sənədləri

Bəzi ölkələrdə dövlət orqanları ilə VCT-lər arasındakı əməkdaşlıq üçün rol və məsuliyyətləri dəqiqləşdirmək üçün çərçivə sazişləri hazırlanıb. Bu sənədlər tərəflərarası əlaqələr üçün aydın əsas yaradır və bununla da VCT-lər və dövlət orqanları arasında davamlı dialoqu və qarşılıqlı münasibəti asanlaşdırır. Bunlara parlament və ya hökumətlə ikitərəfli müqavilələr, əməkdaşlıq üzrə strategiya sənədləri və dövlət orqanları tərəfindən qəbul edilmiş əməkdaşlıq üzrə rəsmi proqramlar daxildir.

**Azərbaycanda cəmiyyət iştirakının qanunvericilik əsası**

Azərbaycan Respublikasının "İnformasiya əldə etmək haqqında" qanunu var. İnformasiya tələb edən sorğularla bağlı dövlət hakimiyyəti orqanları və bələdiyyələr qanun çərçivəsində məlumatın ödənişsiz şəkildə təmin edilməsinə şərait yaratmalıdır.

Qanunvericilik fəaliyyəti və siyasət sənədlərinin layihələrini həm hökumət, həm də vətəndaş cəmiyyəti müzakirə edir və onlara əlavə düzəlişlər edir. Qanun layihələri, qaydalar və siyasətlər parlamentin internet portalında dərc olunur. Burada ziyarətçilər parlamentin qanunların müzakirəsindən əvvəl öz irad və təkliflərini bildirə bilərlər.

Azərbaycanda da ictimai iştirakçılıq haqqında qanun qəbul edilib. O, siyasət təkliflərinin planlaşdırılması, monitorinqi və təsirinin qiymətləndirilməsində ictimaiyyətin iştirakını asanlaşdıran və həyata keçirən prosedurları tənzimləyir. Mərkəzi və yerli hakimiyyət orqanlarında hər bir icra hakimiyyəti orqanı VCT komitəsini yaratmağa və onların həlli yollarını ictimaiyyətlə müzakirə etməyə məsuldur.

VCT-lərin siyasətin hazırlanması prosesində iştirakının səviyyələri və formaları üzrə matrisa Əlavə I-də təqdim olunur.

# V

# Tövsiyə Sənədinin Siyasətin Qəbulu Prosesində Rolu

# V Tövsiyə Sənədinin Siyasətin Qəbulu Prosesində Rolu

> *Tövsiyə sənədi siyasətin hazırlanması üzrə dövrü prosesin mərhələlərinə təsir göstərə bilər.*

Tövsiyə sənədi siyasətin inkişafı prosesi üçün çox güclü bir vasitədir. Siyasətin öyrənilməsi barəsində bir çox məqalələr yazılıb. Onların əksəriyyəti Mərkəzi və Şərqi Avropada nəşr olunur. Bu sənədlər siyasətin yaradılması haqqında ümumi məlumat verir. Onlar həmçinin, prosesin bir və ya bir neçə xüsusi mərhələlərinə diqqət yetirə bilər. Məsələn, bu cür sənədlərin əsas mövzusu siyasi alternativlərin təqdim edilməsi, onların tövsiyəsi, eləcə də siyasətin həyata keçirilməsi ola bilər. Ümumiyyətlə, siyasət tədqiqatçılarının proqram sənədləri problemlərdən bəhs edir, lakin bu siyasi tədqiqatlar proqram sənədlərindən çox fərqlidir. Bu fərqlər sənədlərin hazırlanmasının xarakterindən yaranır. Belə ki, müştəri, hökumət təşkilatı və siyasi analitik arasında bəzi əlaqələr mövcuddur. Bu əlaqələr sənədin xarakterinə və məzmununa böyük təsir göstərəcəkdir. Bununla belə, siyasət araşdırmaları və təhlili sənədləri arasında birbaşa bağlantı olur. Çünki siyasət araşdırmaları, adətən, siyasətin təhlilin yazılması üçün əsas kimi istifadə olunur. Qeyd olunmalıdır ki, Şərqi Avropada siyasət elmi üçün hazırlanan proqram sənədləri bir-biri ilə oxşarlıq təşkil edir.

**Yoxlama siyahısının planlaşdırılması**

| **Tövsiyə sənədinizi yazmağa hazırlaşarkən aşağıdakı sualları nəzərdən keçirin:** |
|---|
| - Tövsiyə sənədiniz siyasətin qurulması prosesinə kömək edəcək? |
| - Siyasətin qurulması prosesində maraqlı tərəflər iştirak edirlər? |
| - Aydın bir problem müəyyənləşdirdinizmi? Bunu qısa şəkildə yaza və ya deyə bilərsinizmi? |
| - Sizin problem ilə bağlı dəliliniz/ sübutunuz var? |
| - Bu problemi həll edə biləcək siyasət variantlarını müəyyənləşdirdiniz və qiymətləndirdinizmi? |
| - Hansı qiymətləndirmə meyarlarını istifadə etdiniz? |
| - Hansı alternativi üstün tutduğunuza qərar verdinizmi? |
| - Seçdiyiniz siyasət alternativini başqaları ilə müqayisə etmək üçün sübutunuz varmı? |

## Siyasi ideyaların yayılması

> *Məqsədinizə və insanlara uyğun ünsiyyət strategiyası seçin.*

Siyasi fikirlərinizin müzakirələrə güclü təsir göstərə bilməsi üçün tövsiyə sənədinizdə göstərilən məsələlər barədə insanları məlumatlandırmalısınız. Belə təsirə nail olmaq üçün sizin "tövsiyə sənədinizi təkcə oxumaq deyil, həm də müzakirə etmək və anlamaq lazımdır" (Bartl, 2001). Lakin bəzən geniş auditoriyanın bir çoxunun bu məlumatlara çıxışı olmur. Buna görə də onlara siyasi fikirlərinizi aydın formada çatdırmalısınız ki, sonra təkliflərinizi tam başa düşə və müzakirə edə bilsinlər. Ünsiyyət vasitəsinə qərar vermək üçün siz tövsiyə sənədinizin fikirlərini nəzərə almalı, çatdırmaq istədiyiniz məqamları düşünməli və hədəf qrupunuzu dəqiq müəyyənləşdirməlisiniz. Həmçinin hədəf auditoriyanızla necə ünsiyyət quracağınıza qərar verməlisiniz. Belə ki, fikrinizi sadə və qısa şəkildə təqdim etmək vacibdir. Bunun üçün aşağıdakı sualları nəzərdən keçirin:

| **Yoxlama siyahısı** |
|---|
| - Sizin hədəf auditoriyanız kimdir? (siyasətçilər, VCT-lər, vətəndaşlar) |
| - Niyə onlarla ünsiyyət qurmaq istəyirsiniz? |
| - Bu problem onlara nə dərəcədə maraqlıdır? |
| - Onlar bu problem haqqında nə bilirlər? |
| - Onların nəzərinə çatdırmaq istədiyiniz tövsiyə sənədinin əsas hissələri hansılardır? |
| - Onlar fikrinizi anlayır və razıdırlarsa, bu məsələ haqqında nə bilməlidirlər? |
| - Fikirlərinizi hədəf qrupuna çatdırmaq üçün ən səmərəli yol nə olardı: şəxsi brifinqlər, qrup təqdimatları, mətbuat konfransı yaxud dəyirmi masa müzakirələri? |

## Tövsiyə sənədi: İcmal

Bu bölmədə diqqət tövsiyə sənədinə yönəldilir. Bu bölmə sizə tövsiyə sənədinin əsas keyfiyyətləri, məqsədi və məzmunu haqqında məlumat verir. Bu bölmə ümumi struktur və mətn elementlərinə ətraflı diqqət yetirəcəkdir. Tövsiyə sənədinin icmalını verərkən iki məqama diqqət etmək lazımdır:

- *Tövsiyə sənədi qərar qəbul etmək üçün köməkçidir*

> *Tövsiyə sənədi qərar qəbuletmə vasitəsidir.*

Tövsiyə sənədi problemi həll edən və müəyyən dəyərlərə əsaslanan ünsiyyət vasitəsidir. Beləliklə, istər digər mütəxəssislər, istərsə də qərar qəbul edənlərə xitab etməsindən asılı olmayaraq, tövsiyə sənədinin məqsədi aşağıdakılardır: *1) hərtərəfli və inandırıcı fikir təqdim etmək; 2 ) hədəf auditoriya üçün qərar qəbuletmə vasitəsi və fəaliyyətə çağırış kimi çıxış etmək.*

Qısacası, yuxarıdakı məqsədlərə nail olmaq üçün aşağıdakıları etmək lazımdır:

– həll edilməli olan siyasət məsələsinin müəyyən edilməsi və təfərrüatlarının aydınlaşdırılması;
– bu məsələnin həll oluna biləcəyi mümkün yolların (siyasət alternativlərinin) təsviri;
– müəyyən edilmiş təhlilə və təqdim edilmiş sübuta əsaslanaraq nəticələrin qiymətləndirilməsi;
– Tövsiyə edilən siyasətin seçilməsi və seçiminizin niyə mümkün olan ən yaxşı variant olmasının sübut edilməsi.

- *Tövsiyə sənədi tətbiqidir, elmi iş deyil.*

Yanaşma və məqsədlərdən göründüyü kimi tövsiyə sənədi elmi sənəddən fərqlənir, çünki proqram sənədində tədqiqatın nəticələri problemin həlli üçün istifadə olunmalıdır. Beləliklə, sənəddə əsas məsələ problemlə həll arasındakı əlaqəni əhatə etməkdir. Bu, tövsiyə sənədinin hazırlanmasında hərəkətverici qüvvədir. Bu məqsədyönlü yanaşmanı tətbiq etməklə müəllif iki rəqib arasında tarazlıq tapmalıdır:

– İlkin tədqiqat problemin hərtərəfli təsviri və mövcud siyasət variantlarının müzakirəsinə yönəlməlidir. Bu halda göstərilən mövqe etibarlı görünəcək və bu da qiymətləndirmə aparmağa imkan verəcək;

Əslində siyasətlərin hazırlanması sənədlərini yazarkən edilən səhvlərdən biri əldə edilən bütün məlumatları və bilikləri sənədə daxil etməyə çalışmaqdır.

Bundan başqa, tövsiyə sənədi elmi işlərdən fərqli olaraq müəyyən dəyərlərə əsaslanır. Belə ki, siyasətlərin hazırlanması üzrə məqalə yazarkən real problemlərin praktiki həllinin göstərilməsi tövsiyə olunur. Həmçinin, siz bir siyasət mütəxəssisi kimi açıq-aydın bir mövqe tutmalısınız ki, müzakirə olunan problemin ən yaxşı həllini tapasınız.

# VI

# Tövsiyə sənədlərinin növləri

# VI Tövsiyə sənədlərinin növləri

**Siyasət araşdırması və siyasət təhlili**

Yuxarıdakı bölmədə müzakirə edildiyi kimi tövsiyə sənədi siyasi mütəxəssislər üçün əsas əlaqə vasitəsidir. Xüsusilə, siyasətin öyrənilməsi ilə məşğul olanların əsas hədəf auditoriyası siyasət mütəxəssisləridir. Siyasətin öyrənilməsi və təhlili arasında birbaşa əlaqə var. Belə ki, siyasi analitiklər tövsiyə sənədlərini yazdıqları məqalələr vasitəsilə əsaslandırırlar. Lakin siyasi analitiklərin hazırladığı proqram sənədləri (siyasi araşdırma və siyasi təhlil) fərqlidir. Belə ki, onların məzmunu birbaşa qərar qəbul edən şəxslərə istiqamətlənir. Aşağıdakı cədvəl bu fərqləri göstərir:

**Cədvəl 6.1** Siyasi araşdırma və siyasətin təhlili arasında fərqlər

| | **Proqram sənədinin növü** | |
|---|---|---|
| | **Siyasi araşdırma** | **Siyasət təhlili** |
| *Auditoriya* | Digər siyasi mütəxəssislərə yönəlir. | Qərar qəbul edən şəxslərə yönəlir. |
| *Diqqət* | Problemyönümlüdür: Ümumi tövsiyələr və məlumatlar hazırlanır. | Müştəriyönümlüdür: Xüsusi qanunlara tətbiq olunur. |
| *Metodika* | Daha çox ilkin tədqiqata müraciət olunur. | İlkin tədqiqata müraciət olunmur. |
| *İstifadə olunan fikirlər / Dil* | Xüsusi intizam və terminlərə əsaslana bilər. | Çox aydın və sadə olmalıdır. |
| *Uzunluq* | 20,000 sözə qədər olmalıdır. | Adətən, 5000 sözdən çox deyil. |

*Tövsiyə sənədi fikri effektiv ifadə etmək üçün kifayət qədər ətraflı olmalıdır.*

Tövsiyə sənədini yazarkən auditoriya, istiqamət və metodika ilə bağlı məqamlar əlavə olaraq, uzunluq, format və istifadə olunan dil məsələlərinə də diqqət yetirmək vacibdir. Şübhəsiz ki, tövsiyə sənədi tam və inandırıcı arqumentlər vermək üçün kifayət qədər təfərrüatlı olmalıdır. Siyasətin öyrənilməsi üçün hazırlanmış tövsiyə sənədi siyasətin təhlili sənədindən daha uzundur. Tövsiyə sənədləri 20,000-ə qədər sözü əhatə etməlidir. Buna baxmayaraq,

bəzən bu 9000-dan 25000-ə qədər söz arasında dəyişir. Bundan əlavə, siz bir çox nəşriyyatçıların sənədin uzunluğu ilə bağlı tövsiyələrini də nəzərə almalısınız.

*Tövsiyə sənədi adətən, hesabat formatına malikdir.*

İkincisi, tövsiyə sənədlərinin geniş olduğunu nəzərə alsaq, bir çox tövsiyə sənədlərində hesabata bənzər bir format var. Bu formata mündəricat, xülasə, mətn çərçivəsində bir çox alt bölmələr və başlıqlar, nömrələnmiş alt hissələr, cədvəl və qrafiklər, o cümlədən qeydlər daxildir. Bu xüsusiyyətlər bütün oxucuların sənədə münasibət bildirməsinə kömək edir. Tövsiyə sənədlərinin formatlaşdırılması üçün dəqiq tövsiyələrə əməl etmək lazımdır.

*Sadə dil üslubundan istifadə etmək lazımdır.*

Siyasətin öyrənilməsi üçün yazılmış tövsiyə sənədlərinin əsas oxucuları digər siyasi mütəxəssislərdir. Bu səbəbdən, onların məqalələri texniki xarakter daşıyır. Lakin fərqli oxucu qruplarını nəzərə alaraq, məsləhət görülür ki, sadə dildən istifadə edəsiniz.

**Yoxlama siyahısının planlaşdırılması**

| **Tövsiyə sənədini yazmağa hazırlaşarkən aşağıdakı suallara cavab verin:** |
|---|
| *Məqsəd və auditoriya* |
| - Sənədinizin məqsədi nədir? |
| - Bu məqalənin yazılması və nəşri ilə nəyə nail olmaq istəyirsiniz? |
| - Sənədinizin əsas auditoriyası kimlərdir? |
| - Sənəd/siyasət ideyalarınız üçün ikinci dərəcəli auditoriya kimlərdir? |
| *Sənədin yazılması və nəşri* |
| - Tövsiyə sənədinin yeganə müəllifi sizsiniz? |
| - Siz tövsiyə sənədinin nə olduğu barədə biliklərə sahibsinizmi? |
| - Tövsiyə sənədinizi kim yazacaq? |
| - Sənədiniz üçün nəşriyyatın şərtləri nədir? |
| *Fikrinizi ümumiləşdirin* |
| - Nəhayət, təsəvvür edin ki, siyasət (dövlət) sənədi yazmamış və bu barədə məlumatı olmayan biri ilə danışırsınız və o, indicə sizdən hazırkı layihəniz haqqında soruşur. Bunu üç cümlə ilə aydın və qısa şəkildə izah edin. Bir çox müəlliflər qeyd edir ki, əgər siz öz fikrinizi aydın və qısa şəkildə ifadə edə bilmirsinizsə, o zaman fikirlərinizin üzərində çalışmalı, onları daha da dəqiqləşdirməli və konkretləşdirməlisiniz. |

# VII

# Tövsiyə sənədinin struktur və mətn elementləri

# VII Tövsiyə sənədinin struktur və mətn elementləri

Təlimatın bu hissəsinə qədər tövsiyə sənədinin sosial məzmununa dərindən baxdınız. Bu bölmədə isə sənədin necə formalaşdırılması və tövsiyə sənədinin mətninin qurulması üçün istifadə olunan yanaşmalarla tanış olacaqsınız. Bu bölmə tövsiyə sənədlərinin tərkib hissələrinin (və ya elementlərinin) icmalı və qısa giriş ilə açılır. Giriş hər bir elementi ətraflı şəkildə izah edir, eləcə də elementlərin struktur və mətn xüsusiyyətlərindən bəhs edir.

Siyasət tədqiqatı və siyasət təhlili arasındakı sıx əlaqəni göstərmək üçün bu iki sahə arasındakı fərqlər yuxarıdakı bölmədə vurğulanıb. Bu səbəbdən, bu bölmədə əsas diqqət tövsiyə sənədlərinə veriləcək. Bu bölmədə istifadə edilmiş bütün nümunələr siyasətin araşdırılması sahəsindəndir. Aşağıda göstərilənlər isə (qrafik 7.1) tövsiyə sənədinin ümumi elementləridir:

**Qrafik 7.1.** Tövsiyə sənədinin ümumi elementləri



Yuxarıdakı elementlər tövsiyə sənədlərinin hazırlanmasında qəbul olunan ümumi yanaşmanı təsvir edir. Bu, həm də ictimai (dövlət) siyasət cəmiyyətindən olan bir çox yazıçı və oxucunun sizdən gözlədiyi yanaşmadır. Bununla belə, bu təsvir resept yox, bələdçi rolunu oynamalıdır. Başqa sözlə, bu kitabçada qeyd olunan bütün elementləri tövsiyə sənədinizə daxil etmək məcburiyyətində deyilsiniz. Öz məqsədləriniz üçün uzlaşdıra bilərsiniz.

*Mövzunuza, məqsədinizə və auditoriyanıza uyğun olan ən yaxşı yanaşmanı seçin.*

## a. Başlıq

Ətraflı şəkildə araşdırılmalı olan ilk element məqalənin başlığıdır. Sənədlərdə təsirli başlıqlarının yazılması çox vaxt qiymətləndirilmir, lakin başlığın oxucuların gördükləri yazının ilk hissəsi olması və tövsiyə sənədində olan mesajı çatdırması vacibdir. Məqalənin başlığı oxuculara tövsiyə sənədində göstərilən mövzu və problem haqqında qısa məlumat verməlidir. Həmçinin, bu elementin təsir gücünə əsaslanaraq, oxucu sənədi oxuyuboxumayacağına qərar verəcəkdir. Beləliklə, tövsiyə sənədiniz üçün təsirli bir başlıq yazmağa kifayət qədər vaxt və diqqət ayırmaq lazımdır. Bu, oxucularınızın marağını cəlb etmək və onların diqqətini saxlamaq üçün çox vacibdir.

*Başlıq oxucuların marağına səbəb olmalıdır. Effektiv başlıqlar təsviri, aydın, qısa və maraqlı olanlardır.*

Başlıq yazmaq yazıçının üslubunu və məqalənin məqsədini əks etdirən fərdi prosesdir. Buna görə də təsirli başlıqlar hazırlamağa kömək edəcək xüsusi qəbul edilmiş qayda yoxdur. Lakin başlıqların yazılması ilə bağlı bəzi təlimatlar və başlıqların qısa təhlili sizə bu bacarığı inkişaf etdirməyə kömək edə və doğru yol göstərə bilər.

Təsirli başlıq aşağıdakı kimi olmalıdır:

- təsviri (yəni məqalədə müzakirə olunan mövzu və problemi təsvir etməlidir)
- mümkün qədər aydın;
- mümkün qədər sadə və qısa;
- oxucularınız üçün maraqlı.

Effektiv başlıq sizdən asılıdır. Bunun üçün aşağıdakı məsələlərə diqqət yetirin:

- **Əksər başlıqlar tam cümlələrdən ibarət deyil.** *Bu, oxucuların diqqətini cəlb etməyə və başlıqların qısa olmasına kömək edir. Amma bəzi nümunə başlıqlarda uzun olanlarına da rast gəlinə bilir.*

- **Açar sözlər çox vaxt başlıqda ön plana çəkilir.** *Başlığın ilk sözləri müzakirə ediləcək əsas məsələləri və ya problemləri çox aydın şəkildə göstərir. Məsələn, müəllif məqalənin diqqət mərkəzində olan üç xüsusi məsələni başlığın əvvəlində yerləşdirməyi seçir və ondan sonra məqalədə ümumi diqqət və problemə toxunur.*

- **Bəzi yazıçılar iki nöqtədən istifadə edərək başlığı iki yerə bölürlər.** *İki başlıqdan istifadə etmək oxucuya tək hissədən ibarət sadə başlıqdan daha çox məlumat verir. Bu cür yanaşma həm də daha uzun başlığı bölməklə başlığı daha aydın edə bilir. İki nöqtədən istifadə tez-tez məqalənin ümumi diqqət mərkəzindən xüsusi məsələlərə keçidini göstərir və ya mövzunu təqdim etməklə yanaşı, yazıçının məsələyə münasibətini göstərmək üçün də istifadə edilə bilər.*

- **Bəzi yazıçılar başlıqda tövsiyə sənədinin əsas nəticələrini göstərirlər.** *Bəzi müəlliflər oxucunun marağını cəlb etmək üçün başlıqda tövsiyə sənədinin əsas nəticəsini göstərir. "Yerli İdarəetmə haqqında İctimai Qavrayışlar: Vətəndaşların Mərkəzi və Şərqi Avropada yerli idarəetmə islahatları və yerli demokratiya haqqında qavrayışı" adlı məqalə buna nümunədir.*

- **Bağlayıcılar (məsələn, lakin), hal şəkilçiləri (məs: -dən), əvəzliklər (məs: bizim) istisna olmaqla, bütün sözlər böyük hərflə yazılır.** *Bu ümumi format oxucuya başlıqdakı ən vacib sözləri aydın görməyə imkan verir. Bununla belə, ikinci dərəcəli söz başlığın əvvəlində və ya iki nöqtədən sonra gəlirsə, o zaman onlar böyük hərflə yazılır.*

**Yoxlama siyahısının planlaşdırılması**

| **Siyasi (dövlət) sənədinizin başlığını yazarkən və yenidən tərtib edərkən aşağıdakı sualları cavablandırın:** |
| --- |
| - Hansı yanaşma başlıq yazmaq üçün məqsədinizə ən uyğun gəlir? |
| - Başlığınız effektivdirmi (təsviri, aydın, qısa və maraqlı)? |
| - Başlığınız tövsiyə sənədinə nə dərəcədə uyğun gəlir və onu doğru təmsil edirmi? |
| - Əlavə başlıq səhifəsi tələb olunurmu? |

## b. Mündəricat

- *Mündəricat bələdçi rolunu oynayır və oxucuları məqaləyə aparır.*

Əgər oxucular sənədi başa düşmək üçün çox çalışmalı olsalar, onlar bütün məqaləni oxumaqdan çəkinə bilərlər. Buna görə mündəricat oxuculara yazıçının məqsədini izah etməlidir. Bu, tövsiyə sənədi kimi uzun və mürəkkəb sənədlərdə xüsusilə vacibdir.

- *Mündəricat müxtəlif növ yazıları oxumağa kömək edir.*

Məqalədə əsas və kiçik bölmələr göstərməklə və mətnin hissələrini tapmaq üçün səhifə nömrələrini daxil etməklə, mündəricat oxucuları maraqlandıra biləcək xüsusi bölmələrə yönəldir. Mündəricatın strukturu, formatı və tərtibatı məqalənizi dərc edən nəşriyyat evinin tələblərindən asılı olaraq dəyişə bilər.

## c. Giriş

Tövsiyə sənədində giriş hissə sənədin əsas hissəsindən sonra gələcək bölmələrin məzmununu müəyyən edir. Beləliklə, giriş məqaləni açır və siyasət probleminin məzmununu və xarakterini təqdim etməklə və aparılan tədqiqat haqqında məlumat verməklə oxucuların marağını gücləndirməyə xidmət edir. Bu, oxucuya yazıçının yanaşmasını və əsas məsələləri başa düşməkdə kömək edəcək. Oxucuların məlumat və anlayışının təmin edilməsi də çox vacibdir: məqalənin bütün mətnini oxumazdan əvvəl ilkin addım olaraq, bir çox oxucu məqaləyə ümumi baxış verən elementləri oxuyur (mücərrəd və ya icraçı xülasə, giriş və nəticə). Məqalənin giriş kimi vacib elementləri effektiv şəkildə yazılsa, oxucu məqalənin bütün istiqamətini, diqqət mövzusunu və əsas ideyalarını dərk edəcəkdir. Nümunə struktur aşağıdakı (qrafik 7.2) qrafikdə verilir:

**Qrafik 7.2** Struktur elementləri



Hər bir struktur elementinin izahı aşağıda göstərilmişdir:

- *Siyasi problemin məzmunu*

“Giriş” məqalənin “səhnəsinin qurulması” ilə açılır, yəni məqalədə göstərilən problem daha geniş təsvir olunur. Bu, oxucuları sənədə aparır və onlara ümumi məlumat verir ki, onlar sənədi oxuduqdan sonra onu asan başa düşə bilsinlər. Bununla belə, bu hissəni diqqət mərkəzində və qısa saxlamaq vacibdir, çünki məqalə məzmunun çox ümumi təsviri ilə başlayırsa, oxucular marağını itirə bilər. Bu səbəbdən, bir çox yazıçılar tez bir zamanda girişdəki məlumatları qısaldır və tədqiqat üçün əsas olan məsələləri təqdim edirlər. Girişin bu hissəsini yazarkən yadda saxlamaq lazımdır ki, diqqət ümumi konteksdə (məsələn, Rumıniya) deyil, problemin konteksində (məsələn, Rumıniyadakı azlıqlar) mərkəzləşməlidir. Yəni, məsələnin dərininə enmək, onu geniş anlayışdan kiçiyə doğru daraltmaq lazımdır. Tövsiyə sənədinin girişi ənənəvi elmi yazılardan çox fərqlidir. Siz elmi yazıdakı kimi mövzu ilə bağlı digər məqalələri təqdim etməli deyilsiniz. Bunun əvəzinə tez bir zamanda məqalənin əsas məsələsi olan siyasət probleminə keçməlisiniz.

- *Siyasi problemin tərifi*

Girişin bu hissəsi mövzu ilə bağlı məlumatdan konkret məsələyə keçidi əks etdirir. Bu hissədə siz oxucunu məqalənizin oxunmağa dəyər olduğuna inandırmalısınız. Buna görə siyasi problemi təsvir edərkən onun vacib problem olmasını da diqqətə çatdırmalısınız. Sizin problemlə bağlı mövqeyinizi aydın şəkildə bildirməliyiniz vacibdir.

*Oxucuların marağını cəlb etmək üçün təsiredici girişlə siyasət probleminin qısa və məqsədyönlü təsvirini təqdim edin.*

Siyasi problemin tərifi üçün iki fərqli yanaşma var: **Birincisi**, bəzi yazıçılar (araşdırmaçılar) problemin tərifi ilə məqalənin məqsədi arasında sıx əlaqə qururlar. Bunun səbəbi odur ki, niyyət, həlli nəzərdə tutulan və təsvir olunan problemə uyğun olmalıdır. **İkincisi**, yazıçı problemin vacibliyini nə qədər güclü və aydın şəkildə çatdırırsa, oxucuların buna inanma ehtimalı bir o qədər çox olar. Buna görə də bu xüsusiyyət tədqiqatın əsas məntiqini ifadə edir. Bu xüsusiyyəti inkişaf etdirmək üçün aşağıdakı suallar faydalı ola bilər:

– Problem nədir?

– Problem cəmiyyətə və müxtəlif əhali qruplarına, o cümlədən qadın və kişilərə, əlliliyi olan insanlara, etnik azlıqlara və basqa həssas qruplara necə təsir edir?

– Problemdə birbaşa və ya dolayısı ilə iştirak edən maraqlı tərəflər kimlərdir?

– Problemin əsas hissələri hansılardır?

– Problemi təsvir etmək üçün hansı sifətlərdən (necə? nə cür? hansı?) istifadə edərdiniz?

– Problemlə bağlı əsas suallar və ya mübahisələr hansılardır?

- *Niyyət bəyanatı (bəyan etmək=açıq şəkildə söyləmək və ya yazmaq)*

Bu hissə , adətən məqsəd bəyanatı adlanır və tövsiyə sənədinin məqsədini ifadə edən bir və ya iki cümlədən ibarətdir. Niyyət bəyanatı tövsiyə sənədi üçün əsas olan arqumentin qurulmasında çox vacibdir. Deməli, o, siyasi problemə münasibət və problemin xüsusiyyəti ilə sıx bağlıdır. Niyyət bəyanatını yazarkən hansı yanaşmanın tətbiq olunacağına qərar vermək lazımdır. Bunun üçün niyyət bəyanatının məqsədini, problemin xarakterini və problemlə bağlı hissələrin gücünü nəzərə almaq lazımdır.

> *Effektiv arqumentin qurulması üçün məqalənin məqsədini ifadə etmək çox vacibdir.*

- *Metodika və tədqiqatın məhdudiyyətləri*

Girişdə yazıçılar siyasətin öyrənilməsində istifadə olunan metodika haqqında qısa məlumat verirlər. Oxucunu məqalənin bu hissəsinə hazırlamaqla yanaşı, bu xüsusiyyət yazıçının bir tədqiqatçı kimi güvəninin qurulmasında əsas rol oynayır. Bu, həm də məqalədə işlənmiş təhlil və arqumentlərin yaxşı təcrübəyə əsaslandığını göstərməyə kömək edir. Yazıçılar istifadə olunan metodikaya qısa giriş təqdim edirlər. Tədqiqatın quruluşu və əsas dəyişənlərin siyahısı da təqdim olunmalıdır. Müqayisəli təhlil kimi tədqiqatın metodik çərçivəsini təqdim etməklə yanaşı, tədqiqatın coğrafi miqyasını və istifadə olunan tədqiqat metodlarını da ətraflı təsvir etmək lazımdır.

> *Təhlilin çərçivəsini və tədqiqatın əhatə dairəsini qısa şəkildə təsvir edin.*

Bəzi yazıçılar da tədqiqatın əhatə dairəsini və məhdudiyyətlərini göstərməyi seçirlər. Bir tədqiqatın diqqət mərkəzində olan siyasi problemin bütün tərəflərini həll edə bilməyəcəyini qəbul etmək də lazımdır. Həmçinin, tədqiqat metodikası ilə bağlı məhdudiyyətlərin ola biləcəyini qəbul etsəniz, bir tədqiqatçı kimi etibarlılığınız artır. Bəzən məhdudiyyətin təsviri oxucuya məsələnin dərinliyini göstərir. Məhdudiyyətlər oxucuya məlumat verir ki, tədqiqat nəticəsində təklif olunan siyasi tövsiyələr bu məhdudiyyətləri nəzərə almalıdır.

- *Sənədin istiqamət xəritəsi*

Girişə daxil edilən son hissə sənədin necə təşkil olunduğuna dair ümumi məlumat verən yol xəritəsidir. Bu, oxucuya uzun və çətin tövsiyə sənədini oxumağa kömək

etmək üçün əhəmiyyətlidir. Adətən, yazıçı giriş hissədə son abzasda məqalədə bəhs edilən əsas məsələni aydın şəkildə ifadə edir. O, hətta təhlil edilən problemin əsas diqqət yetirdiyi mövzusunu və onun ayrı hissələrini oxucunun aydın başa düşməsi üçün nömrələyir.

*Sənədin təşkili haqqında ümumi məlumat təqdim edin.*

**Yoxlama siyahısının planlaşdırılması**

| **Aşağıdakı suallar tövsiyə sənədinin effektivliyini artırmağa kömək edəcək:** |
|---|
| - Ardıcıl giriş yaratmaq üçün bütün xüsusiyyətləri (siyasət probleminin konteksti və tərifi, niyyət bəyanatı, metodika və məhdudiyyətlər, istiqamət xəritəsi) daxil etmisinizmi? |
| - Məzmun qısa və problemyönümlüdür? |
| - Siyasət probleminin vacibliyini və aktuallığını aydın şəkildə bildirmisiniz? |
| - Məqalənin məqsədi aydın şəkildə göstərilib? |
| - Öz metodikanızı və məhdudiyyətlərinizi təqdim etmisiniz? |
| - Məqalənizin mündəricatı aydın şəkildə sıralanıb? |

## d. Problemin təsviri

Problemin təsviri daxili problemi təqdim edir. Girişə nəzər saldıqdan sonra müzakirə mətnin əsas hissəsinin birinci elementinə, problemin təsvirinə keçir. Aşağıdakı dörd məqam problemin təsviri üçün vacibdir :

*Problemin təsviri problemin mövcud olduğuna aid dəlil təqdim edir.*

- *Problemin təsviri problemin xarakterini müəyyənləşdirir və onu açıqlayır.*

Problem haqqında geniş məlumat verərkən problemin təsviri adətən bunları əhatə edir: iştirakçılar, şərtlər, səbəblər, məhdudiyyətlər, münaqişələr, maraqlar və dəyərlər, rollar və məsuliyyətlər, nəticələr və təsirlər.

- *Problemin təsviri oxucunu inandırmalıdır ki, məsələ hökumətin diqqətinə layiqdir.*

Bir çox insanlar qeyd olunan problemin əslində mövcud olması ilə razılaşmaya bilər. Buna görə də problemin təsvirinə çoxlu təsviri və ya faktlara əsaslanan elementlər daxil edilməlidir. Bu elementlər hərtərəfli və inandırıcı arqumentlərdən ibarət olmalıdır ki, problemi hökumətin həll etməsi qaçınılmaz olsun.

- *Problemin təsvirində mühitin deyil, mühitdə konkret problemin təsvirinə yer verilməlidir.*

Tövsiyə sənədinin bu hissəsində ətraf mühitin müzakirəsi ilə başlamaq və sonra problemə keçmək doğru deyil. Əksinə, problemin keçmiş və mövcud mühitləri və ya kontekstləri daxilində problemin təsvirinə diqqət yetirilməlidir. Məsələn, bölməni "Moldova Respublikası … ildə qurulub" deyil, "İrqi ayrı-seçkilik məsələsi ilə bağlı ilk hərtərəfli qanunvericilik Moldovada... ildə tətbiq edilib" cümləsi ilə başlayan yazıçının məqsədyönlü yanaşma ehtimalı daha çox olacaq. Birinci versiyadakı yanaşma detalların lazımsız şəkildə çoxalmasına gətirib çıxarır və vurğulamaq istədiyiniz məqamı itirir.

- *Problemin təsviri siyasi nümunələrin hərtərəfli müzakirə oluna biləcəyi bir çərçivə yaratmalıdır.*

Problemin təsviri problem haqqında ətraflı məlumat verən sənədin elementidir; ona görə də ondan sonrakı siyasi nümunələrin hərtərəfli müzakirə oluna biləcəyi möhkəm təməl yaratmaq üçün kifayət qədər əhatəli və aydın olmalıdır.

Sonrakı iki alt bölmə problemin effektiv təsvirini təşkil edən struktur və mətn xüsusiyyətlərini ətraflı şəkildə araşdırır.

# VIII

# Problemin təsvirinin qurulması: Mətn və Arqumentin təqdimatı

# VIII Problemin təsvirinin qurulması: Mətn və Arqumentin təqdimatı

Problemin effektiv təsvirinin qurulması təkcə nəyin daxil ediləcəyi barədə bilik və məntiqi yanaşma tələb etmir. O, həm də inandırıcı arqumentlər yaratmaq üçün bu vəziyyətlərdə mətndən necə istifadə olunduğuna dair şərtləri dərindən başa düşməyi tələb edir. Bu yarımbölmə sadalanan sahələrə diqqət yetirəcək: ahəngdarlıq, effektiv arqumentlərin qurulması, paraqrafların tərtib edilməsi və əsas və ikinci dərəcəli mənbələrdən istifadə.

| Tövsiyə sənədlərinin təhlili |
| --- |
| - Təhlilinizdə sizə kömək etmək üçün sənədin girişini oxumalısınız. |
| - Arqumentin düzgün şəkildə irəli sürülməsi üçün arqumentin hər bir hissəsi arasında olan əlaqələr ardıcıldır. Tövsiyə sənədini oxuyarkən bu nümunədə ardıcıllığın necə qurulduğuna diqqət edin. |
| - Bu, ümumi arqumentin aydın mənzərəsini yaratmağa kömək edəcək. |
| - Sonrakı təhlil kontekstdə uyğunluq anlayışını araşdırır. |

**Ahəngdarlıq.** Oxucunun işini asanlaşdırmaq üçün tövsiyə sənədinin hissələrini ardıcıllıqla birləşdirməyə çalışmalısınız. Bu hissələr yalnız sadə və aydın qurulmalı, bölmə başlıqların ömrvəələ mə ilə əlaqələndirilməlidir. Bundan əlavə, mətn daxilində uyğunluğun gözlənilməsi lazımdır. Məsələn, "Hökumətlərarası maliyyənin makroiqtisadi ölçüləri" adlı bir alt bölmədə yazıçı bu alt bölmə üçün aşağıdakı girişi daxil etməyi seçir:

> *Bütün elementlər arasında və daxilində aydın əlaqələr yaradın.*

> Hökumətlərarası maliyyə islahatları məhdud fiskal kontekstdə, vergi islahatlarının və milli gəlir sistemlərində əsaslı dəyişikliklərin aparıldığı bir vaxtda həyata keçirilir. Mövcud sabitləşmə ilə bağlı narahatlıqlar bəzi hallarda sağlam, uzunmüddətli hökumətlərarası sistemin qurulmasında əsassız olaraq üstünlük təşkil edə bilər.

Bu giriş, əsasən, alt bölmənin diqqəti mövzusunu təsvir edir və alt bölmənin ümumi arqumentlə əlaqəsini izah edir. Əslində, tutarlılıq səbəbi ilə bu cür girişlər tövsiyə

sənədinin alt bölmələrində geniş yayılmışdır. Bununla yanaşı, yazıçının hər bir alt bölmə daxilində aydın əlaqələr və məntiqi məzmun bağı yaratmasına ehtiyac var.

**Effektiv arqumentlərin qurulması**

Arqumentin hər bir elementinin qurulmasını nəzərdən keçirmək üçün filosof Stiven Toulmin tərəfindən təklif olunan arqumentin irəli sürülməsi modelindən istifadə etmək faydalıdır (Karbach, 1987). Toulmin bildirir ki, hər bir arqument üç əsas elementdən ibarətdir: **iddia, dəstək və zəmanət**. Bu elementləri aşağıdakı kimi izah etmək olar:

*Hər bir arqument iddia, dəstək və əsaslandırıcı nümunədən ibarətdir.*

– *İddia mövqeyinizin/arqumentinizin ifadəsidir.*

– *Dəstək iddianızı dəstəkləmək üçün təqdim etdiyiniz sübutdur.*

– *Zəmanət iddia ilə dəstək arasındakı əlaqəni izah edir.*

Bu üç elementi aşağıdakı nümunədə aydın görmək olar:

**Xərclər üzrə öhdəliklərin dəyişdirilməsi**

Bəzi ölkələrdə sosial xərclər və sosial təhlükəsizlik şəbəkəsi üçün büdcə məsuliyyəti submilli (submilli hökumətlər bələdiyyə, regional və əyalət hökumətlərin də daxil olduğu daha yerli miqyasda fəaliyyət göstərən hökumətlərdir) hökumətə verilir. Məsələn, Macarıstanda sosial yardım haqqında qanuna əsasən 1993-cü ildə rifah xərcləri üçün məsuliyyət yerli ərazilərə verilib (İddia). Ukraynada da sosial təhlükəsizlik şəbəkəsi submilli məsuliyyətdir (Dəstək). Rusiyada mərkəzi hökumət 1992-ci il büdcəsində ÜDM-nin təxminən 6 faizinə bərabər olan sosial xərcləri yerli əhaliyə köçürüb, əslində kəsri aşağı salırb (Zəmanət). Bu xidmətlərə tələbatın iqtisadi vəziyyətin pisləşməsi ilə artacağı ehtimal olunurdu. Beləliklə,1993-cü ildə yenə də Rusiyada milli investisiyalar üçün məsuliyyət (nəqliyyatda olduğu kimi) submilli sektora verildi.

**Paraqrafların tərtib edilməsi.** Yuxarıda qeyd olunduğu kimi inandırıcı olmaq üçün arqument yaratmaq vacibdir. Arqumentləri oxucuya təqdim edərkən abzasdan səmərəli istifadə etmək lazımdır. Bu, oxumanı asanlaşdıracaqdır.

*Effektiv abzaslar məntiqi vahidləri göstərir.*

Abzasın məqsədi mətndə həm məntiqi, həm də fiziki fasilələri göstərməkdir. Beləliklə, bu, oxucuya arqumentin hər bir elementini asanlıqla izləməyə kömək edir. Bu cür uzun və çətin sənədlərdə müvafiq abzasların olması sürətli şəkildə sənədi nəzərdən keçirmək üçün oxuculara kömək edir.

Hər bir abzas adətən mətnin girişində (*mətnin girişi* = abzasda qeyd olunan ilk cümlə) deyildiyi kimi bir arqumenti inkişaf etdirir. Mətnin girişi paraqrafda mübahisə edilən mövzuya olan münasibəti göstərir. 1-ci paraqrafdakı “Hökumətlərarası fiskal islahatlar aparılır...” mətnin girişi bu fikri göstərir. Mətnin girişi yeni bir mübahisənin başlanğıcı və ya daha geniş arqumentdə müəyyən bir fikrin təsviri ola bilər. Bundan əlavə, hər abzas üçün bir arqumentin yaradılması abzasların həm yazıçı, həm də oxucu üçün necə effektiv məntiqi fasilələr verdiyini başa düşmək üçün açardır. Sonrakı təhlil bu fikirləri daha ətraflı izah edir.

Effektiv abzası yaradarkən ikinci əsas məsələ ardıcıllıqdır. Paraqraf səviyyəsində bu, paraqrafdakı cümlələr arasında aydın əlaqələrin qurulmasını tələb edir. Bu cür əlaqəli bağlantıların yaradılmasında istifadə olunan ümumi üsullar bunlardır:

> *Effektiv abzaslar ardıcıl şəkildə tərtib olunur.*

– açar sözlərin təkrarı;

– paralel strukturların, yəni oxşar ifadələrin və cümlələrin qurulmasının istifadəsi;

– keçid ifadələrinin düzgün istifadəsi, məsələn, sonra, sonrakı, məsələn, əlavə olaraq, həmçinin, lakin.

Verilmiş nümunədə bu üsulları görmək olar:

İkinci, üçüncü və dördüncü cümlələrdə yazıçı “bir ölkədə” (<u>Macarıstanda, Ukraynada, Rusiyada</u>) ifadəsi ilə başlayaraq paralel strukturlardan istifadə edir. Həmçinin, bəndin son cümləsində də oxşar strukturdan istifadə olunur. Bundan əlavə, ikinci cümlədə “məsələn” və üçüncü cümlədə “çox” kimi sözlərdən istifadə edərək əlavə uyğunluq əldə edilir. Paraqraflarınızın uyğunluğu, cümlələrarası bağı haqqında düşünmək və problemin təsvirində həm məntiqi, həm də fiziki fasilələr yaratmaq mütləqdir.

**Əsas və ikinci dərəcəli mənbələrdən istifadə**

Arqumentinizi müxtəlif mənbələrlə dəstəkləmək problemin effektiv təsvirinin qurulmasının əsas elementidir. Mənbələri mətninizə daxil etməklə siz, arqumentinizin etibarlılığını artırır, məqalənizdə konkret siyasət məsələsinin müzakirəsinə töhfənizi çərçivəyə salmağa kömək edir və səmərəli istinadla arqumentinizi qurduğunuz əsas siyasət həlli barəsində oxucularınızı məlumatlandırırsınız.

> *Problemin effektiv təsviri müxtəlif mənbələrə əsaslanan arqumentdir.*

# IX

# Siyasət Seçimləri

# IX Siyasət Seçimləri

Siyasət seçimlərinə dair elementlərin vəzifələri aşağıdakılardır:

- *Siyasət seçimlərini təsvir edir, qiymətləndirir və müqayisə edir*

Hazırlanmış mümkün siyasət variantları hərtərəfli və inandırıcı şəkildə təqdim edilməlidir. Bu variantların hər birini təsvir edərkən siyasət seçimləri elementi iki əsas məsələyə diqqət yetirir: 1) konkret problemin həllində hər bir variantın qiymətləndirilməsinin nəticələrinə; 2) bu baxımdan variantların necə müqayisə olunmasına.

- *Üstünlük verilən siyasət - alternativi üçün əsaslandırıcı sübutlar təqdim edir*

Siyasət variantlarını təqdim edərkən yazıçının iki əsas məqsədi var: 1) qiymətləndirmə və müqayisənin nəticələrindən istifadə edərək problemi ən effektiv şəkildə həll etmək; 2) yazıçının qərarını aydın şəkildə nümayiş etdirmək. Bu o deməkdir ki, yazıçı digər siyasət alternativlərinin niyə rədd edildiyini aydın şəkildə göstərmək üçün də sübutlardan istifadə etməlidir. Başqa sözlə desək, yazıçı bu siyasət alternativini niyə seçdiyini və digərini niyə seçmədiyini sübutlarla izah etməlidir.

*Siyasət seçimləri elementi – qiymətləndirmə əsasında üstünlük verilən siyasət alternativi üçün arqument təqdim etməlidir.*

- *Qəbul edilmiş qərar barədə məlumat verir*

Sənədin bu elementi siyasəti necə həyata keçirdiyinizə dair addım-addım hesabat verməməlidir. O, əksinə, hər bir seçim haqqında verdiyiniz qərarları və hər bir qərarın arxasında duran səbəbləri bildirməlidir. Növbəti addımları yox, bu mərhələyə qədər olan məlumatı əks etdirməlidir.

- *Nəticələr və tövsiyələr ilə aydın və ardıcıl əlaqə qurur*

Seçdiyiniz siyasət variantının arqumenti tövsiyələriniz üçün əsas zəmin rolunu oynamalıdır. Buna görə də arqument və tövsiyələr bölməsi tam aydın şəkildə əlaqələndirilməlidir. Eyni zamanda, onlar aydın təsvir və izahat üçün fərqli funksiyalar yerinə yetirir.

Siyasət seçimləri elementi iki əsas hissədən ibarətdir: 1) Təhlil çərçivəsi; 2) Siyasət alternativlərinin qiymətləndirilməsi.

- *Təhlil çərçivəsi*

Müzakirə edildiyi kimi tövsiyə sənədi məqalədə verilmiş problemin necə həll ediləcəyinə dair arqumentdir. O, bütün məlumatların ciddi təhlilinə əsaslanır. Bu təhlil yazıçının qiymətləndirmə prosesində istifadə etdiyi prinsiplər çərçivəsindən ibarətdir. Bu çərçivə yazıçının ideyalarını və dəyərlərini əhatə edir. Sözügedən təhlil çərçivəsi siyasət variantlarının qiymətləndirilməsinə dair məlumat verir

*Təhlil çərçivəsi qiymətləndirməyə rəhbərlik edən ideyaları və dəyərləri əhatə edir.*

**Yoxlama siyahısının planlaşdırılması**

| **Təhlil çərçivənizi yazmaq üçün aşağıdakı suallara baxın:** |
|---|
| - Təhlil çərçivəsinin qurulmasında hansı prinsiplər, dəyərlər və ideyalar sizə rəhbərlik edəcək? |
| - Bu prinsiplər sözügedən problemə necə şamil edilir? |
| - Tutduğunuz mövqeyin əsası nədir? |
| - Sizin mövqeyiniz geniş şəkildə tanınırmı? |
| - Təhlil çərçivənizi sənəddə haraya yerləşdirmək fikrindəsiniz? |

**Siyasət variantlarının qurulması: mətn və arqumentasiya**

Tövsiyə sənədini hazırlayan müəllifi təkcə element haqqında struktur və təşkilati biliyə ehtiyac duymur. O, həm də tövsiyə sənədindəki arqumentin yazılması qaydasını başa düşməlidir. Problemin təsviri bölməsində bu məsələyə də toxunulub. Həmin bölmədəki məsələlərin bir çoxu arqument elementlərinin ardıcıllığına, qurulmasına və paraqraflara aid edilir. Beləliklə, biz yalnız iki element arasındakı fərqlərə diqqət yetirəcəyik.

## Yoxlama siyahısının planlaşdırılması

| **Effektiv arqument yaratmaq üçün aşağıdakı sualları nəzərdən keçirin:** |
|---|
| • *Uyğunluq* |
| - Probleminizin təsviri ilə siyasət seçimləri arasında əlaqələr varmı? |
| - Siyasət seçimlərinin bütün alt bölmələrini əlaqələndirdinizmi? |
| - Siyasət seçimlərinizin hər bir alt bölməsində keçidlər də aydındırmı? |
| • *Arqumentasiya* |
| - Arqumentinizin hər bir elementinə iddia, dəstək və zəmanət daxildirmi? |
| • *Abzas* |
| - Rəvan oxu üçün siyasət seçimləriniz abzaslara bölünürmü? |
| - Arqumentinizin hər bir məntiqi vahidini ayrıca abzasda işləyib hazırlamısınızmı? |
| • *Yazıçının səsi və mənbələrdən istifadə* |
| - Sizin kifayət qədər mövqeləriniz və əsaslandırmalarınız var? |
| - Problemin təsviri ilə müqayisədə bu elementə daha az mənbə daxil etmisiniz? |
| - Digər mənbələrdən, yazıçıların fikirlərindən sübut kimi istifadə etmisiniz? |
| - Siz başqa şəxsin fikrindən sitat gətirmə qaydalarına əməl etmisiniz? |

# X

# Nəticə və Tövsiyələr

# X Nəticə və Tövsiyələr

*Nəticə – tövsiyə sənədinin qərar qəbul etmə rolunu yerinə yetirir.*

Nəticə və tövsiyələr tədqiqatın əsas nəticələrini birləşdirir və yazıçının təklif etdiyi fəaliyyət kursunu təsvir edir. Bu hissə tövsiyə sənədinin qərar qəbuletmə vasitəsi və hərəkətə çağırış kimi məqsədini yerinə yetirir. Nəticə və tövsiyələrin məqalənin yekun əsas hissəsi olması həm də o deməkdir ki, o, məqalə haqqında qalıcı təəssürat buraxmaq üçün məsuliyyət daşıyır. Siyasi sənədlərin oxunma prosesini və bəzi oxucuların əsas maraqlarını nəzərə alsaq, bu elementin oynadığı əlavə və vacib rolu ortaya qoyur. Belə ki, bir çox oxucu məqalənin izahlı hissəsini oxumazdan əvvəl ilkin mərhələ kimi bu bölməni giriş və ya ümumi qısaltma (abstrakt) ilə birlikdə oxuyur. Nəticə və tövsiyələr hissəsi oxuculara məqalənin xülasəsini əldə etməyə kömək edir. Bəzi oxucular məqalədəki siyasət tövsiyələri ilə də xüsusilə maraqlanırlar və oxumağa əvvəlcə tövsiyələrdən, sonra isə sənədin qalan hissəsinə baxaraq başlaya bilərlər.

# Əlavə I. Vətəndaş iştirakının matrisi

| İştirak səviyyələri | | | | | | |
|---|---|---|---|---|---|---|
| **TƏRƏF-DAŞLIQ** | İşçi qruplar və ya komitələr | Birgə layihənin hazırlanması | Birgə qərar qəbulu | Strateji tərəfdaşlıqlar | İşçi qruplar və ya komitələr | İşçi qruplar və ya komitələr |
| **DİALOQ** | Dinləmələr və ictimai forumlar· Vətəndaş forumları, Əsas hökumət əlaqəsi | Dinləmələr və sual-cavab panelləri<br><br>Ekspert seminarları,<br><br>Çoxtərəfli komitələr və məsləhət orqanları | Açıq və plenar komitə iclasları | Potensialın artırılması seminarları və təlimləri | İşçi qruplar və ya komitələr | Seminarlar və müzakirə forumları |
| **MƏSLƏHƏT** | Müraciət etmək,<br><br>Onlayn və ya digər üsullarla məsləhətləşmə | Dinləmələr və sual-cavab panelləri,<br><br>Ekspert seminarları,<br><br>Çoxtərəfli komitələr və məsləhət orqanları | Açıq və plenar komitə iclasları | Tədbirlər,<br><br>Konfranslar,<br><br>Forumlar,<br><br>Seminarlar, | Geridönüş mexanizmləri | Konfranslar və ya görüşlər,<br><br>Onlayn məslə-hətləşmələr |
| **MƏLUMAT** | Asan və açıq məlumat əldə etmək,<br><br>Tədqiqat,<br><br>Kampaniya və lobbiçilik,<br><br>Əsas sənədlər üçün sayt | Siyasət sənədlərinə açıq və sərbəst giriş,<br><br>Əsas sənədlər üçün vebsayt,<br><br>Kampaniyalar və lobbiçilik,<br><br>Veb yayımları,<br><br>Tədqiqat girişi | Təşviqat və lobbiçilik | Məlumata açıq çıxış,<br><br>Məlumat əldə etmək üçün vebsayt,<br><br>E-poçt xəbərdarlıqları,<br><br>Tez-tez verilən suallar,<br><br>İctimai tender,<br><br>Prosedurlar | Məlumata açıq çıxış,<br><br>Sübutların toplanması,<br><br>Qiymətləndirmə-lər,<br><br>Tədqiqat işləri | Məlumata açıq çıxış |
| **Siyasət quruculuğu prosesində addımlar** | **Gündəm qurulması** | **Qarşılıq** | **Qərar** | **İcra olunma** | **Monitorinq** | **Reformulyasiya** |

# İstinadlar (APA)


Anderson, James E. (1994). *Public policymaking*. 2nd ed. Princeton, NJ: Houghton Mifflin.

Dye, Thomas (1992). *Understanding public policy*. (7th ed.). Englewood Cliffs, NJ: Prentice Hall.

https://www.unicef.org/turkiye/en/press-releases/conditional-cash-transfer-education-ccte-programme-syrians-and-other-refugee.

https://www.unicef.org/eca/media/1566/file/Roma%20education%20postition%20paper.pdf.

Young Eóin, & Quinn, L. (2002). *Writing effective public policy papers: A guide for policy advisers in Central and Eastern Europe*. OSI.

Code of good practice for civil participation in the decision-making process, Council of Europe, 2019.

Ünvan: BMT-nin 50 illiyi küçəsi, 3,
AZ 1001, Bakı, Azərbaycan
Telefon: +994 12 4989888
Faks: +994 12 4922491
E-poçt: registry.az@undp.org
İnternet səhifəsi: www.undp.org/azerbaijan

© 2023 Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı